**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**OFELYA SULTAN qızı ABBASOVA**

# MÜASİR AZƏRBAYCAN HEKAYƏLƏRİNDƏ SƏNƏTKARLIQ MƏSƏLƏLƏRİ (2000-2008-CI ILLƏR)

**5716.01 –Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI - 2017**

Dissertasiya Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İfrat Səlim qızı ƏLİYEVA**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Aqil Cəfər Xəndan oğlu Hacıyev**
filologiya üzrə elmlər doktoru
**Səfurə Hüseyn qızı Quliyeva**
filologiya üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrası

Müdafiə “____” ________ 2017-ci il saat “____ .00”-da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “_____” “ ______________” 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə elmlər doktoru,**
**professor:** **T.H.HÜSEYNOV**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Bədii ədəbiyyatın inkişafında dövrün ictimai-siyasi və ədəbi-estetik dəyərləri mühüm rol oynayır. Çünki hər bir dövrün ictimai-siyasi və ədəbi-estetik prinsipləri və şərtləri bədii düşüncəyə öz möhürünü vurduğundan ədəbi proses bu kontekstdə gerçəkləşir. Bu mənada Sovetlər Birliyinin süqutu, Azərbaycanın yenidən müstəqillik əldə etməsi cəmiyyət həyatında siyasi baxış tərzinin dəyişməsilə yanaşı, həmçinin milli-mənəvi müstəvidə yeniləşməyə ciddi təkan vermiş oldu. Məhz bunun nəticəsində ədəbi dəyərlərin yenidən tədqiqi və araşdırılması üçün imkanlar yarandı. Lakin bir məsələyə diqqət yetirilməlidir ki, Azərbaycanın yenidən istiqlaliyyətinə qovuşması həmçinin bədii ədəbiyyatın mövzu və məzmun baxımından yeniləşməsinə gətirib çıxardı. Ədəbiyyatın qısa bir zaman kəsiyində yaşadığı bu keyfiyyət dəyişiklikləri digər janrlarda olduğu kimi, hekayələrdə də aşkar şəkildə duyulmağa başladı. Yaranmış bədii örnəklər dövrümüzün ictimai-siyasi və mənəvi-əxlaqi sferasına güzgü tutduğu, başqa sözlə, onun canlı panoramını çəkdiyi üçün bu janrın xüsusi təhlil obyektinə çevrilməsi aktuallıq kəsb edir. 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində sənətkarlıq məsələlərinin araşdırılması da bu baxımdan diqqəti cəlb edir.

**Mövzunun aktuallığı.** Dissertasiya işi çağdaş Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığı üçün son dərəcə aktual olan bir mövzuda qələmə alınmışdır. Dissertasiyanın aktuallığını səciyyələndirən əsas amillərdən biri 2000-2008-ci illərdə yaranan hekayələrin ilk dəfə ciddi, sistemli şəkildə tədqiqata cəlb olunmasıdır.

Araşdırmaya cəlb olunan dövrün bədii nəsrinin mühüm qollarından biri olan hekayə janrı özünəməxsus inkişaf yolu keçmişdir. Oxuculara təqdim olunan hekayələrin istər mövzu-problem, istər bədii konflikt, istərsə də janr-üslub kontekstində bir sıra uğurlar əldə etməsi onların sənətkarlıq baxımından müstəqil tədqiqat obyektinə çevrilməsini şərtləndirir. Bu baxımdan da araşdırmaya cəlb olunan mövzu aktuallıq kəsb edir.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri yalnız 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrinin deyil, ümumiyyətlə əvvəlki onilliklərdə qələmə alınmış mövcud bədii örnəklərin sənətkarlıq baxımından kifayət qədər araşdırılmamasıdır. Məhz sənətkarlıq kontekstində araşdırılmadığı üçün hekayə janrının keçdiyi təkamül yolunu bədii-estetik kontekstdə izləmək mümkün deyildir. Bu mənada araşdırılan mövzunun aktuallıq kəsb etdiyi şübhə doğurmur.

**Tədqiqatın elmi yeniliyi.** Ayrı-ayrı araşdırmalarda çağdaş Azərbaycan hekayələrində sənətkarlıq məsələlərinin bir sıra aspektləri bu və ya



başqa şəkildə təhlil obyektinə çevrilsə də, indiyədək bəhs olunan janr ciddi, sistemli şəkildə tədqiq olunmamış, dövrün bədii örnəklərini yaradan ədəbi şəxsiyyətlərin yaradıcılığı bu yöndə dəyərləndirilməmişdir. Tədqiqatın elmi yeniliyini şərtləndirən mühüm amillərdən biri məhz bəhs olunan mövzunun ilk dəfə olaraq cidii, sistemli təhlil obyektinə çevrilməsilə bağlıdır.

Dissertasiya işində hekayə janrının araşdırılması fonunda yalnız bəhs olunan illərin bədii örnəkləri deyil, əvvəlki dövrün ədəbi məhsulları da müqayisəli təhlilə cəlb olunmuşdur. Təhlillərin müqayisəli şəkildə aparılması yalnız 2000-2008-ci illərdə yaranan hekayələri deyil, bütövlükdə milli bədii nəsrdə bəhs olunan janrın poetikasını səciyyələndirməyə imkan vermişdir.

Dissertasiyanın elmi yeniliyini şərtləndirən amillərdən biri də araşdırmaya cəlb olunan problemin yalnız estetik prinsiplər fonunda deyil, həmçinin sosioloji kontekstdə şərh olunmasıdır ki, bu da tədqiq olunan dövrün bədii örnəklərinin bütün yönlərilə dəyərləndirilməsini səciyyələndirir.

Dissertasiyada 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələri təhlil olunarkən bir tərəfdən ümumi ədəbi proses fonunda janrın qazandığı ədəbi uğurlar səciyyələndirilmiş, digər tərəfdən ayrı-ayrı sənətkarların bədii yaradıcılıq örnəkləri timsalında onların hər birinə məxsus fərdi üslub çalarları, yazı tərzi və s. aşkara çıxarılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin yazılmasının əsas məqsədi 2000-2008-ci illərdə yaranmış Azərbaycan hekayələrində sənətkarlıq məsələlərini araşdırmaqdır. Qarşıya qoyulan məqsədə çatmaq üçün əsas etibarilə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə çalışılmışdır:

– 2000-2008-ci illərdə yaranmış hekayələri mövzu, məzmun, problem baxımından səciyyələndirmək;

– Mövcud hekayələr fonunda bədii düşüncəni şərtləndirən sənətkarlıq məsələlərini yeni ədəbi mərhələnin təşəkkülü və formalaşmasında rolunu hərtərəli şəkildə səciyyələndirmək;

– Bəhs olunan dövrün bədii axtarışları çərçivəsində hekayələrin janr özünəməxsusluqlarını səciyyələndirmək;

– Yaranan hekayələrdə konflikt və xarakter məsələsinin qoyuluşuna diqqəti yönəltmək;

– Hekayələrdə mövzunun işlənilməsi ilə bağlı məqamlara diqqəti yönəltmək;

– Mövcud hekayələrin müasirlik aspektini şərtləndirən bədii-estetik amilləri üzə çıxarmaq;

– Hekayə yaradıcılığı timsalında Azərbaycan nəsrinin sənətkarlıq səviyyəsini və estetik özünəməxsusluğunu aşkarlamaq;

– Ayrı-ayrı ədəbi nəsillərin yaradıcılığı fonunda hekayə janrının

qazanmış olduğu bədii xüsusiyyətləri səciyyələndirmək;

– Təhlilə cəlb olunan hekayələrlə bağlı yazılmış tədqiqatlara münasibət bildirmək;

– 2000-2008-ci illər hekayələrini çağdaş təfəkkür işığında və milli-nəzəri müstəvidə dəyərləndirmək;

– Hekayələri dil-üslub problemləri baxımından araşdırmaq və bu kontekstdə üzə çıxan elementləri səciyyələndirmək.

**Tədqiqatın predmeti**. Dissertasiyanın predmetini 2000-2008-ci illərdə yazılmış Azərbaycan hekayələrində sənətkarlıq məsələlərinin araşdırılması təşkil edir. Tədqiqat işində sənətkarlıq məsələləri kontekstində mövzu seçimi, süjet və tipiklik, ideya-problematika, konflikt və xarakter, janr və forma axtarışları, dil-üslub xüsusiyyətləri elmi-nəzəri şəkildə dəyərləndirilmişdir. Dissertasiyada araşdırmaya cəlb olunan problemlərin dünyanəzəri estetik fikri müstəvisində təqdim edilməsi üçün mövcud analoji tədqiqatlara da yeri gəldikcə istinad olunmuşdur.

**Tədqiqatın obyekti**. Dissertasiyanın tədqiqat obyektini 2000-2008-ci illər Azərbaycan hekayələrində sənətkarlıq məsələlərinin araşdırılması təşkil edir. Tədqiqat işində bu janrda qələmə alınan bədii örnəklər təhlil edilmiş, İsa Hüseynov (Muğanna), Sabir Əhmədli, Əlisa Nicat, Elçin, Qılman İlkin, Mövlud Süleymanlı, Afaq Məsud, Rafiq Tağı, Vaqif Sultanlı, Orxan Fikrətoğlu, Azad Qaradərəli, Elçin Hüseynbəyli, Aygün Həsənoğlu və digər yazıçıların hekayə yaradıcılığı sənətkarlıq probleminin müxtəlif aspektləri ilə bağlı nəzərdən keçirilmişdir. Yuxarıda adı çəkilən tanınmış ədəbi şəxsiyyətlərlə yanaşı, bir çox gənc qələm sahiblərinin yaradıcılıq irsi də dissertasiyada təhlil obyektinə çevrilmişdir. Araşdırmada bədii nümunələrlə yanaşı, Azərbaycan ədəbiyyatşünaslığında hekayə janrının problemlərinə həsr olunmuş ədəbi-nəzəri qaynaqlardan bəhrələnilmişdir.

**Mövzunun tədqiqi tarixi**. Məlum olduğu kimi, Azərbaycan hekayələri haqqında bir sıra tədqiqat əsərləri yaranmışdır. Filologiya elmləri doktoru, professor Altay Məmmədovun «Azərbaycan hekayələri» adlı monoqrafik tədqiqatında bu janrın keçib gəldiyi inkişaf və təkamül yolu mövzu, ideya-problem və sənətkarlıq axtarışları kontekstində sistemli şəkildə təhlil və tədqiq obyektinə çevrilmişdir.[1] Sonrakı dövrlərdə yaranmış bir sıra ədəbi-tənqidi və ədəbiyyatşünaslıq araşdırmalarında da Azərbaycan hekayəsinin poetikasının öyrənilməsi istiqamətində müəyyən addımlar atılmışdır.

Akademik Bəkir Nəbiyevin[2], AMEA-nın müxbir üzvü, professor

[1] Altay Məmmədov. Azərbaycan hekayəsi, Bakı, «Yazıçı» nəşriyyatı, 1984

[2] Bəkir Nəbiyev. Çətin yollarda. Bakı: Elm, 2000



Yaşar Qarayevin[1], professor Akif Hüseynovun, filologiya elmləri doktorları Cahangir Məmmədovun[2], Tehran Mustafayevin, tənqidçi Vaqif Yusiflinin[3] müxtəlif illərdə qələmə aldığı müxtəlif səpkili tədqiqatlarda Azərbaycan hekayələrinin tədqiqinə də yer verilmişdir.

Müasir Azərbaycan ədəbiyyatının bədii sənətkarlıq məsələlərinə həsr olunmuş müxtəlif səpkili araşdırmalarda da tədqiqata cəlb olunan problemin bəzi məqamları nəzərdən keçirilmişdir.

Son illərdə çağdaş Azərbaycan hekayələrinin mövzu, problem və poetikasına həsr edilmiş bəzi dissertasiya işlərində bu və ya digər kontekstdə bədii sənətkarlıq məsələlərinə diqqət yetirilmişdir.

Bütün bu tədqiqatlara baxmayaraq indiyədək bəhs olunan dövrün Azərbaycan hekayələri bədii sənətkarlıq müstəvisində sistemli şəkildə araşdırılmamışdır. Müdafiəyə təqdim olunan dissertasiya işi məhz bu zərurətdən yaranmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti**. Dissertasiya işi praktik əhəmiyyətə malikdir. Onun nəticə və materiallarından ədəbi tənqid, ədəbiyyatşünaslıq, ədəbiyyat nəzəriyyəsi və s. məsələlərə həsr olunmuş tədqiqatlarda qaynaq kimi istifadə edilə bilər.

Dissertasiya işi təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma formulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşıyır.

Tədqiqat işindən həmçinin müxtəlif ali məktəblərin humanitar fakültələrində ümumi və xüsusi kursların tədrisində yardımçı vəsait kimi istifadə edilə bilər.

Dissertasiya işi təkcə tənqidçi və ədəbiyyatşünaslar üçün deyil, həmçinin ədəbiyyat nəzəriyyəsi və poetikanın müxtəlif problemlərini araşdıran tədqiqatçılar üçün də əhəmiyyət daşımaqdadır.

**Tədqiqatın nəzəri-metodoloji əsası**. Dissertasiya işinin tədqiqi ədəbi-elmi, nəzəri-kulturoloji irsə yanaşmada tarixilik prinsipinə ardıcıl şəkildə riayət olunması əsasında həyata keçirilmiş, bu zaman əsas etibarilə müqayisəli təhlil metoduna üstünlük verilmişdir. Əsərin yazılmasında müasir ədəbiyyatşünaslığın nəzəri-estetik müddəaları başlıca çıxış nöqtəsi olmuş,

[1] Yaşar Qarayev. Poeziya və nəsr. Bakı: Yazıçı, 1979; Yenə onun: Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1989

[2] Cahangir Məmmədov. Nəsrimiz: düşüncələr, axtarışlar. Bakı: Yazıçı, 1984; Yenə onun: Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri. Bakı: BDU nəşri, 1998

[3] Vaqif Yusifli. Nəsr: konfliktlər, xarakterlər. Bakı: Yazıçı, 1986

analoji tədqiqatların təcrübə və nəticələrindən istifadə edilmişdir.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya işi AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin nəzdində fəaliyyət göstərən Əlaqələndirmə Şurasında təsdiq edilmiş, Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında hazırlanaraq yerinə yetirilmişdir. Tədqiqatın nəticələri respublikada və xaricdə çıxan müxtəlif məcmuə, toplu və jurnallarda dərc olunmuş məqalələrdə, habelə elmi konfranslarda oxunmuş məruzə və çıxışlarda öz əksini tapmışdır.

**Tədqiqatın strukturu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində araşdırmaya cəlb olunan mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiqi tarixi, obyekti, işin praktik əhəmiyyəti, nəzəri-metodoloji əsasları, aprobasiyası və digər məsələlər haqqında qısa, yığcam şəkildə danışılmışdır.

Dissertasiyanın **«Hekayələrdə mövzu, ideya və problematika axtarışları»** adlanan I fəsli iki bölmədən ibarətdir.

Birinci bölmə ***«Mövzu seçimi, süjet və tipiklik»*** adlanır.

Məlum olduğu kimi, çağdaş Azərbaycan hekayələrinin sənətkarlıq xüsusiyyətlərindən bəhs olunarkən ilk növbədə onun müraciət etdiyi mövzu, süjet və tipiklik məsələlərindən danışmağa ehtiyac duyulur. Çünki sənətkarlıq məsələlərinin bəhs olunan problemlərdən kənarda dərk olunması doğru deyildir. 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələri mövzu yeniliyi, rəngarəngliyi və çoxproblemliliyi ilə diqqəti cəlb edir. Bəhs olunan dövrün hekayələrində xalq ədəbiyyatının və klassik söz sənətimizin zəngin xəzinəsindən bəhrələnmə meylləri, ənənələri yaşatma və inkişaf etdirmə cəhdləri özünü aşkar şəkildə büruzə verməkdədir. Azərbaycan nasirləri orijinal, bənzərsiz, milli mühit üçün aktual olan mövzularda hekayə yazmağa üstünlük verdiyindən bu əsərlərin mövzuları yeniliyi, novatorluğu ilə seçilir. Yazıçıların yeni mövzularda yazmağa üstünlük verməsi onların əsərlərinə istər-istəməz yeni məzmun aşılamış, bu isə təbii ki, yazılarının məzmun orijinallığını təmin etmişdir. Həmçinin 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində mövzu və məzmun orijinallığı ideya yeniliyi ilə müşayiət olunduğundan bədii aktuallıq kəsb edir.

Bəhs olunan dövrün ədəbi prosesini təmsil edən İsa Hüseynov (Muğanna), Sabir Əhmədli, Qılman İlkin, Afaq Məsud, Rafiq Tağı, Orxan Fikrətoğlu, Elçin Hüseynbəyli, Aygün Həsənoğlu, Şəlalə Əbil, Aləmşah Gü-



mürlü və başqa yazıçıların yaradıcılığı müraciət olunan mövzuların yeniliyi, süjetin bənzərsizliyi və təsvir olunan əhvalatların tipikliyi baxımından bir sıra səciyyəvi cizgilərlə müşayiət olunur. Yaradıcılıq eridusiyası, yazı manerası ilə biri-birindən əhəmiyyətli dərəcədə fərqlənən bu yazıçıların hekayə janrında qələmə aldığı bədii örnəklər sənətkarlığın ən mühüm aspektlərinin aşkarlanmasına və üzə çıxarılmasına material verir.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələri içərisində ictimai-siyasi mövzulu bədii örnəklər mühüm yer tutur. Mövzu seçimi və süjet qurumunda müəlliflərin ictimai-siyasi məsələlərə diqqət yetirməsi, hər şeydən əvvəl, dövrün mövcud ab-havasından qaynaqlanır. Digər tərəfdən bütün dövrlərdə ədəbiyyatın hər hansı formada cəmiyyətin problemlərinə qeyri-həssas münasibətinə təsadüf olunmadığını nəzərə alarsaq, bəhs olunan dönəmdə Azərbaycan hekayələrində də ictimai-siyasi problemlərə diqqət yetirilməsi tamamilə təbiidir. Lakin burada diqqət yetirilməsi zəruri olan əsas amillərdən biri bədii müstəviyə çıxarılan problemin hansı şəkildə işlənilməsi, başqa sözlə sənətkarlıq məsələsinin başlıca komponentlərinin müəyyənləşdirilməsidir. Şübhəsiz ki, problemin işlənilməsinə yalnız bu kontekstdə yanaşıldıqda hekayə janrının qazandığı uğurları səciyyələndirmək mümkündür.

2000-2008-ci illər Azərbaycan hekayələrində ictimai-siyasi problemlərin işlənilməsində iki aspekt özünü aşkar şəkildə büruzə verir: a) ictimai-siyasi mövzuların aşkar publisistik müstəvidə təqdimi; b) bəhs olunan mövzuların şərti-metaforik kontekstdə işlənilməsi.

Yazıçı Orxan Fikrətoğlunun «Neft Dadaş» hekayəsində simvolik səciyyə daşıyan bir obrazın – Dadaşın timsalında zəngin neft ölkəsi olan Azərbaycanın taleyi əsas mövzu obyekti kimi seçilmişdir. Yazıçı son illərdə qələmə alınan bir sıra hekayələrdə olduğu kimi, problemin mahiyyətini aşkarlamaq üçün ənənəvi bədii priyomlardan istifadə etmir. Başqa sözlə, hekayədə publisistik məqam sırf arxa plandadır.

«Neft Dadaş» həcm etibarı ilə yazıçının digər hekayələrindən böyükdür. Bu da təsadüfi deyildir, çünki müəllif əsərdə yaratdığı obrazın taleyi fonunda mənsub olduğu xalqın tarixinin mühüm məqamlarına diqqət yetirmişdir. Burada bir çoxlarına adi görünə bilən mövzu orijinal, bənzərsiz ifadə tərzi ilə gerçəkləşdiyindən hekayənin bədii kamilliyini şərtləndirir.

Hekayənin baş qəhrəmanı olan Dadaş adi insanlardan fərqli olaraq üç ayaqlıdır. Qeyd edək ki, obrazın üç ayaqlı təqdim olunması təsadüfi səciyyə daşımır. Bu, müəllifin qaldırmış olduğu problemə özünəməxsus yanaşma tərzi ilə gerçəkləşən şərti-metaforik üslubundan qaynaqlanır.

Qarabağ müharibəsi haqqında yazılan əsərlər sırasında Qılman İl-

kinin «İntiqam», Elçinin (Əfəndiyev) «Qarabağ şikəstəsi», «Araba», «Sarı gəlin», Elçin Hüseynbəylinin «Qarabağ şikəstəsi», Alimşah Gümürlünün «Ərsağ (Arsak) əfsanəsi», Aygün Həsənoğlunun «Qarabağı qaytaran oğlan və yaxud Fərhad əfsanəsi», «Məhvərindən qopan dünya», «İblis», «Sərhəd», «Yanğı», «Tabutda dirilənlər», Şəlalə Əbilin «Teorem» hekayələri diqqəti çəkməkdədir. Bu hekayələr eyni mövzuda qələmə alınsa da, onları biri-birindən fərqləndirən məqamlar çoxdur.

Qılman İlkinin «İntiqam» hekayəsində Xəzangül obrazının timsalında Qarabağ müharibəsinə düçar olmuş qadınların ümumiləşdirilmiş obrazı yaradılmışdır. Müəllif Qarabağ müharibəsi fonunda cərəyan edən hadisə və əhvalatlara dərindən bələd olduğu üçün belə bir məqama diqqət yetirmiş və həmin epizodu mövzu obyekti kimi müəyyənləşdirmişdir. Burada hekayənin mövzusuna çevrilmiş hadisə obrazın daxili dünyasının özünəməxsusluqlarını aşkarlamağa imkan vermişdir. Bu isə «İntiqam» hekayəsinin bədii keyfiyyətini şərtləndirən mühüm məqamlardan biri kimi diqqəti çəkir.

Elçinin (Əfəndiyev) «Qarabağ şikəstəsi» hekayəsi problemin yeni kontekstdə qoyuluşu baxımından maraq doğurur. Yazıçı Qarabağ müharibəsinin ağrı-acılarını, faciələrini, məşəqqətlərini obrazlı şəkildə əks etdirməyə nail olmuşdur. Hekayənin əsas qəhrəmanı olan Cümü doğma Qarabağdan, Şuşadan didərgin düşəndən sonra Buzovnada bir yataqxanada məskunlaşır. Doğma yurdunu unuda bilməyən və qaçqınlıq həyatı ilə barışmayan qəhrəman vətəninə xəyallar aləmində dönür.

Lakin hekayədə Cümü ilə yanaşı, daha iki obraz İzabel və Ağadadaş da diqqəti çəkir. İzabel milliyyətcə yəhudi olsa da, əslən Azərbaycandandır və İsraildə yaşamasına baxmayaraq ana vətəni üçün darıxır, qürbətdə özünə yer tapa bilmir. Avtobusda sürücü işləyən Ağadadaş isə yaşadığı həyatın yeknəsəqliyindən narazı bir obraz kimi təqdim olunur. Hekayənin süjeti fonunda yazıçı bəhs olunan obrazların daxili dünyası kontekstində problemin mahiyyətini aşkarlamağa çalışır.

«Elçin öz hekayəsində üç tale yaşantısı arasındakı oxşar və fərqli, əlaqəli və əlaqəsiz, uyğun və ziddiyyətli vəziyyətləri üzə çıxarmağa imkan verən müxtəlif hadisələri, əhvalatları, anları, məqamları təsvir yolu ilə yurd-yurddaş vəhdəti və asılılığına aydınlıq gətirir, vətəndaşlıq problemini qabardır, işğalçı siyasətin acı nəticələrini, ağır fəsadlarını üzə çıxarır, Azərbaycan xalqının öz varlığı, milli mənliyi, mənəvi-əxlaqi dəyərləri uğrunda mübarizəsinin həyati zərurətini əks etdirir, sərhədsiz dünya birliyinə ümidin özünü doğruldub-doğrultmayacağı kimi qlobal məsələlər üzərində düşünməyə sövq edir. Qarabağın taleyinin bu problemlərdən, onların həllindən keçdiyini göstərir və buradan irəli gələn bədii vüsət əsərin başlıca ideya-



məzmun xüsusiyyətini müəyyən edir»[1].

Elçin Hüseynbəylinin satirik-yumoristik səpkidə qələmə aldığı «Qarabağ şikəstəsi» hekayəsi də Dağlıq Qarabağ probleminə həsr olunmuşdur. Yazıçı hekayənin epizodik qəhrəmanları kimi təqdim etdiyi bir kəndin insanları timsalında müharibə dövründə yaranan psixoloji ovqatın real, gerçək mənzərəsini əks etdirmişdir. Lakin bəhs olunan hekayə Qarabağ mövzusunda qələmə alınmış digər hekayələrdən bir sıra aspektləri ilə fərqlənməkdədir.

«Qarabağ şikəstəsi» hekayəsi Azərbaycanın böyük satirik yazıçısı Cəlil Məmmədquluzadəyə ithaf olunmuşdur. Hekayənin dili, üslubu, burada təsvir olunan hadisələrin təqdimi də böyük mütəfəkkirin yaradıcılıq üslubundan qaynaqlanan çalarlarla şərtlənir. Lakin müəllif Cəlil Məmmədquluzadə üslubuna dövrün estetik prinsiplərinə uyğun müəyyən yeni çalarlar və xüsusiyyətlər də gətirə bilmişdir ki, əsərin sənət orijinallığı da məhz bu məqamlara söykənir.

Elçin Hüseynbəyli böyük satirikin üslubuna sadiq qalaraq komik konflikti məhz sosial problemlərlə yükləmiş, zahirən gülüş doğuran hadisə və əhvalatlardan uzaqlaşmağa çalışmışdır. Bu da hekayənin orijinallığını təmin etməklə yanaşı, eyni zamanda onun bədii siqlətini xeyli dərəcədə artırmışdır. Müəllif təsvir etdiyi tragikomik səhnələrdə milli dəyərlərin, insan ləyaqətinin alçaldılmasının özünəməxsus tərəflərini sənətkarlıqla aşkarlaya bilmişdir.

Aygün Həsənoğlunun «Yeddi qapı» adlı kitabına daxil etdiyi «Qarabağı qaytaran oğlan və yaxud Fərhad əfsanəsi», «Məhvərindən qopan dünya», «İblis», «Səhv», «Sərhəd», «Yanğı», «Tabutda dirilənlər» və başqa hekayələrində müəllif əsas mövzu kimi seçdiyi Qarabağ faciəsinə diqqəti yönəltmək məramı izləmişdir. Yazıçının bəhs olunan hekayələrində mövzunun seçimi və işlənilməsi yazıçı manerasının özünəməxsus gözlənilməzlikləri ilə müşayiət olunur. Bir çox hallarda müəllifin seçdiyi mövzuya münasibəti qapalı qalır. Hekayələrdə müəllif tendensiyasının açıq ifadə olunması bilavasitə mövzunun özündən qaynaqlanırsa, onun işlənilməsi prosesində fərqli çalarlar müşahidə olunur. Məsələn, yazıçının «İblis» və «Yanğı» hekayələrində əsas mövzu və problem Xocalı faciəsi üzərində qurulmuşdur. Müəllifin məqsədi oxucunun (bütövlükdə xalqın) diqqətini bu faciəyə yönəltməkdir.

Yazıçının Qarabağ müharibəsinə həsr etdiyi adı çəkilən hekayələrini

---

[1] Elçin Mehrəliyev. Yazıçının yurd həsrəti (Elçinin «Qarabağ şikəstəsi» hekayəsi haqqında düşünərkən) // Azərbaycan, 2008, № 1, s.176

təhlil obyektinə çevirən tənqidçi Nərgiz Cabbarlı onlarda mövzu-problem aktuallığını vurğulasa da, bütövlükdə əsərlərin tələsik işlənildiyini və nəticədə bədii sənətkarlıq baxımından zəif olduğunu qeyd etmişdir: «Ağrı bəllidir, məqsəd isə real tarixi faktları ədəbiyyatın yaddaşına yazmaqdır. Məqsədə çatılıb. Amma hekayələrin bir çoxunda götürülmüş və yazılmış mövzunun bədii həlli lazımi şəkildə tapılmayıb»[1].

Gənc yazıçı Şəlalə Əbilin «Teorem» adlı hekayəsində Qarabağ problemi orijinal bədii formada həllini tapmış, özünəməxsus sənətkarlıqla işlənilmişdir. Hekayənin diqqəti çəkən cəhəti burada bir çox hekayələrdə olduğu kimi Qarabağ faciəsinin publisistik səpkidə ifadə olunmamasıdır. Yazıçı əsas diqqəti Azərbaycan xalqı üçün taleyüklü bir problemə – torpaq itkisinə yönəltmək üçün yeni bir ədəbi priyomdan istifadə etmiş və öz məqsədinə nail olmuşdur.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində məhəbbət mövzusunda yazılan bədii örnəklər də özünəməxsus yerlərdən birini tutur. Firuz Mustafa, Müzahim İsmayılzadə, Elçin Hüseynbəyli və bir çox digər müəlliflərin məhəbbət mövzusunda qələmə aldıqları hekayələr problemin bəzi səciyyəvi məqamlarını aşkarlamaq baxımından diqqəti çəkir.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində mənəvi-əxlaqi problemlərə həsr olunmuş bədii örnəklər də maraq doğurur. Təhlilə cəlb olunan bədii örnəklər aşkar şəkildə göstərir ki, bu dövrdə elə bir yazıçıya təsadüf edilmir ki, mənəvi-əxlaqi mövzuda bədii örnəklər, o cümlədən hekayələr yazmamış olsun. Mənəvi-əxlaqi mövzularda qələmə alınan hekayələr bədii sənətkarlıq baxımından mövcud bədii örnəklərdən xeyli dərəcədə seçilir. Bu isə mövzu və ideyanın son dərəcə populyar olmasından qaynaqlanır. Onu da qeyd etmək lazımdır ki, mənəvi-əxlaqı problemə həsr olunmuş hekayələrin konkret mövzu sərhədlərinin müəyyənləşdirilməsi mümkün deyildir. Bəhs olunan problemin ən incə çalarlarına diqqət yetirilməsi də nəzərdən qaçırılmamalıdır.

Araşdırmaya cəlb olunan dövrdə İsa Hüseynovun (Muğanna) hekayələri mənəvi-əxlaqi mövzuda qələmə alınmış sanballı bədii örnəklər kimi diqqəti çəkir. Qeyd edək ki, yazıçının hekayələrində mənəvi-əxlaqi dəyərlər uğrunda mübarizə bütün kəskinliyi ilə ifadə olunmuşdur. Ümumiyyətlə, İsa Hüseynovun (Muğanna) roman və povestlərində olduğu kimi hekayələrində də mənəvi-əxlaqi problemlərin özünəməxsus şəkildə bədii təzahürü diqqəti çəkməkdədir. Yazıçı tipik hadisələri canlandırmağa çalışır, ötəri, keçici hadisə və əhvalatları bədii nəsrə gətirməyi sevmir və bu amil onun hekayə

[1] Nərgiz Cabbarlı. Yeni nəsil ədəbiyyatı–2. Bakı: Qanun, 2008, s.48



yaradıcılığının ümumiləşdirmə vüsətini şərtləndirir.

2000-2008-ci illər Azərbaycan nəsrində sənədli hekayələrə də təsadüf olunur. Sabir Əhmədlinin «Fransa hekayələri» silsiləsindən qələmə aldığı «Rezidens de Mareşoda», «Marsel – varlanmaq istəyi», «Eks-yoxsulluq istəyi», «Paris Notrdam kilsəsində top atəşi», «Apatri» kimi hekayələri janrın dəyərli örnəkləri kimi maraq doğurur. Bu hekayələrdən tədqiqatın sonrakı fəslində bəhs olunacağı üçün üzərində dayanmağa lüzum görmədik.

Birinci fəslin ***«İdeya-problematika müasirliyi»*** adlanan II bölümündə 2000-2008-ci illər Azərbaycan hekayələrində bəhs olunan problem nəzərdən keçirilmişdir.

Bəlli olduğu kimi, ədəbiyyatın digər janrları kimi bədii nəsrdə mövzu və ideya məsələsi problematika ilə sıx bağlıdır. Ona görə də bu məsələlərin qarşılıqlı vəhdətdə araşdırılması daha müvafiqdir. Bəhs olunan dövrün hekayələrində hər şeydən öncə, qaldırılan problemlərin müasirliyi maraq doğuran faktorlardandır. Müasirlik isə bədii sənətkarlığı şərtləndirən amillərdən biri kimi nəzəri-estetik fikrin vacib komponentlərindən biridir.

2000-2008-ci illər Azərbaycan hekayələrində müasirlik ruhu qabarıq şəkildə bədii təcəssümünü tapmışdır. Yazılan hekayələrdə müasirlik ilk növbədə dövrü, mühiti qavramaqda, həyatın nəbzini tutmaqda tarixi dövrün problemlərini dərk etməkdir. Bütövlükdə çağdaş Azərbaycan hekayələri müasirliyə xidmət məramına söykənir. Hekayələrin mövzusu nədən bəhs edir-etsin, tarixin hansı dövrünü və mərhələsini əhatə edir-etsin, burada ilk öncə müasirlik ruhu diqqəti çəkir.

Azərbaycan hekayələrində problematika müasirliyi kontektində Rafiq Tağının «Jorj», Elçin Hüseynbəylinin «Keçə kimi qara və soyuq hava…kəndə gün çıxanda qayıdacağıq», Kamil Əfsəroğlunun «Yarasalar» və «Yel», Şəlalə Əbilin «Həmlə» adlı hekayələri təhlil üçün daha çox material verən bədii örnəklər kimi maraq doğurur. Adı çəkilən hekayələrdə bir tərəfdən qaldırılmış problemlərin müasirliyinin təmin edilməsinə çalışılmış, digər tərəfdən isə oxucunun diqqəti problemin aktuallığına yönəldilmişdir.

Rafiq Tağının «Jorj» adlı hekayəsində ideya-problem müasirliyinin forma-sənətkarlıq özünəməxsusluğu ilə qarşılıqlı əlaqədə təqdim olunması əsərin bədii kamilliyini şərtləndirən amillərdəndir. Bədii təhkiyənin müəllifin dərin mütaliə sahibi olduğunu göstərən hekayədə əsas qəhrəmanlar poliklinikada həkim işləyən Jorj və məşhur müğənni Yuri Antonovdur. Əsərin əsas problematikası isə şöhrətpərəstlik və onun fəsadları üzərində qurulmuşdur. Lakin müəllifin bu problemi ənənəvi tərzdə işləməməsi, onu özünəməxsus bədii müstəvidə canlandırması hekayənin bədii uğurunu təmin etmişdir.

Rafiq Tağının «Jorj» hekayəsi müəllif təhkiyəsi və baş qəhrəman

olan Jorjun daxili monoloqu üzərində qurulmuşdur. Burada dialoqdan istifadə olunmamış, daha doğrusu, müəllif dialoqa lüzum görməmişdir. Süjetin məhz bu kontekstdə qurulması hekayədə psixologizmi dərinləşdirmiş, qaldırılan problemin daha təsirli şəkildə həllini təmin etmişdir.

Elçin Hüseynbəylinin «Keçə kimi qara və soyuq hava…kəndə gün çıxanda qayıdacağıq» hekayəsində yurd və torpaq itkisi əsas problem kimi seçilmiş və qaldırılan problem özünəməxsus sənətkarlıqla bədii ifadəsini tapmışdır.

Hekayənin adsız qəhrəmanı balaca oğlu Orxanla həyat yoldaşının doğulduğu Şəmkir rayonuna qonaq gedir. O, yolda oğluna öz yurdu düşmən əsarətində olduğuna görə həyat yoldaşının yaşadığı rayona getdiyini xatırladır. Qəhrəman oğluna söyləyir ki, əgər doğulduğu rayon düşmən əsarətində olmasaydı, indi məhz ora gedəcəklərdi.

Hekayədə diqqəti çəkən əsas məqamlardan biri qəhrəmanın bir zamanlar doğulduğu kəndə getməsini oğluna xatirə kimi nəql etməsidir. Yazıçı burada qaldırmış olduğu problemin bir tərəfdən müasirliyini təmin etmiş, qarşı tərəfdən onun yüksək bədii sənətkarlıqla canlandırılmasına nail olmuşdur.

Yazıçının təsvir etdiyi final bir neçə baxımdan maraq doğurur və hekayənin sənətkarlıq səviyyəsini nümayiş etdirir. Hər şeydən əvvəl, burada qaldırılmış problem publisistik səciyyə daşımır və müəllif tendensiyasını açıq şəkildə əks etdirmir. Digər tərəfdən baş qəhrəmanın itirilmiş yurd haqqında nastolji duyğuları onun oğlu Orxanda doğma vətənin taleyi ilə bağlı düşüncələrə səbəb olur. Bununla yazıçı gənc nəsli itirilmiş torpaqların taleyinə biganə qalmamaq məramına səsləmiş olur. Həmçinin finalda torpaqdan ayrı düşmüş insanların qəbirləri ilə bağlı epizodla yazıçı yaşından, məqamından asılı olmayaraq hər kəsi vətənin taleyi ilə daha yaxından, daha ciddi şəkildə maraqlanmağa çağırır.

Yazıçı-dramaturq Firuz Mustafanın «Okean» hekayəsi ənənəvi problemin yeni bədii traktovkada təqdimi baxımından diqqəti çəkir. Hekayənin əsas mövzusu məhəbbət süjeti üzərində qurulmuşdur. Lakin burada mövzu və problem məhəbbət süjeti çərçivəsində qapanıb qalmır. Yazıçı ənənəvi məhəbbət süjetini sədaqət, etibar, əhd-vəfa, doğruluq və s. kimi mənəvi-əxlaqi keyfiyyətlərlə məharətlə əlaqələndirə bilmiş və orijinal, oxunaqlı bir əsər ortaya çıxarmışdır.

Problematika müasirliyinin qabarıq hiss olunduğu bədii örnəklər içərisində Kamil Əfsəroğlunun «Yarasalar» hekayəsi də diqqəti çəkir. Hekayənin əsas süjet xətti qəsəbədə gecələr qarovulçuluq edən Lətif kişinin həyatının kiçik bir zaman kəsimini əhatə edir. Əsərin başlanğıcında yazıçı təsvir etdiyi obrazın daxili dünyasına işıq salmaqla oxucuda öz qəhrəmanı



haqqında müəyyən təsəvvür yaradır. Daha sonra qəsəbənin gecə həyatının mənzərəsini əks etdirən epizodlar verilir. Lakin bunlar hələ hekayədə qaldırılan problemi əks etdirən məqamlar deyildir.

Bəhs olunan dövrün hekayələrində problematika yeniliyi gənc yazıçı Şəlalə Əbilin hekayələrində də aşkar şəkildə özünü büruzə verir. Onun qələminə məxsus «Zolaqlı dirək», «Həmlə», «Marqo», «Çətir və yaxud dəniz haqqında romantik düşüncələr», «Qapıçı», «Yaddaşsızlıq», «Zürafə», «Aqava çiçəyi», «Ala çatı», «Teorem» və başqa hekayələri qaldırılan problemin orijinal bədii həlii ilə diqqəti çəkməkdədir.

Qeyd edək ki, 2000-2008-ci illərdə yaranmış Azərbaycan hekayələrində qaldırılan problemin bədii ifadə tərzi fərqli xüsusiyyətləri ilə gerçəkləşməkdədir ki, bunu ayrı-ayrı yazıçıların yaradıcılığı timsalında aşkar şəkildə müşahidə etmək mümkündür. Bu, bir tərəfdən bədii sənətkarlıq məsələsi kimi şərtlənirsə, digər tərəfdən yazı dəst-xəttindən, fərdi yaradıcılıq üslubundan qaynaqlanır.

Dissertasiyanın **«Bədii konflikt və qəhrəman problemi»** adlanan II fəslində sosial-siyasi konfliktlər və qəhrəman, mənəvi-əxlaqi dəyərlər və obraz məsələləri təhlil və tədqiq olunmuşdur. Bu fəsil iki bölmədən ibarətdir.

Birinci bölmə ***«Sosial-siyasi konfliktlər və qəhrəman axtarışları»*** adlanır.Araşdırmaya cəlb olunan dövrün hekayələrində diqqəti cəlb edən məqamlardan biri konfliktlərin sosial-siyasi müstəvidə baş verməsidir. Bu isə hər şeydən əvvəl, yeni dövrün problemlərinin daha qabarıq şəkildə təqdim olunması ilə şərtlənir. Şübhəsiz ki, hadisə və əhvalatların sosial-siyasi konfliktlər fonunda canlandırılması yazıçıdan böyük məharət və eyni zamanda yaradıcılıq cəsarəti tələb edir. Belə ki, müəllif həm yaşadığı dövrün problemlərinə dərindən bələd olmalı, eyni zamanda yaşanılan problemləri ümumiləşdirmək imkanlarına malik olmalıdır.

Bu tipli yazılara Sabir Əhmədli, İsa Muğanna, Vaqif Sultanlı və digər yazıçıların yaradıcılıq nümunələrində təsadüf olunmaqdadır. Adı çəkilən yazıçıların təhlilə cəlb olunan hekayələrində sosial-siyasi konfliktlər və qəhrəman problemi özünəməxsus yaradıcılıq dəst-xəttinin fərdi üslubdan qaynaqlanan bədii sənətkarlıq aspektlərini şərtləndirir. Bu isə hekayələrdə sosial-siyasi konfliktlər fonunda aşkarlanan hadisə, əhvalat və obrazların bədii sənətkarlıq səviyyəsini səciyyələndirməyə imkan verir.

Sabir Əhmədlinin «Fransa hekayələri» silsiləsindən qələmə aldığı «Rezidens de Mareşoda», «Marsel – varlanmaq istəyi», «Eks-yoxsulluq istəyi», «Paris Notrdam kilsəsində top atəşi», «Apatri» kimi hekayələri qəhrəmanın daxili dünyasının sosial-siyasi konflikt müstəvisində açıqlandığı əsərlər kimi maraq doğurur. Bir növ səyahətnamə səpkisində qələmə

alınan bu hekayələrin yaranması səbəbləri ilə bağlı yazıçının qənaətləri də diqqəti çəkir.

Qeyd edək ki, Sabir Əhmədlinin «Fransa hekayələri» silsiləsi müxtəlif mövzularda qələmə alınsa da, onları birləşdirən ümumi məqamlar mövcuddur. Bu, hər şeydən əvvəl, təqdim olunan hekayələrin ciddi sosial-siyasi münaqişə zəminində qurulmasıdır. Başqa sözlə, hekayələrdə yazıçının sənətkarlığı daha çox konfliktin aşkarlanması prosesində üzə çıxdığından onların dəyərləndirilməsi də bu müstəvidə aparılmalıdır.

Sovet hakimiyyəti illərinin müşahidəsi əsasında yazıldığı üçündür ki, Sabir Əhmədlinin adı çəkilən hekayələrində müəyyən qədər dövrün abhavasının təsiri hiss olunur. Lakin bütövlükdə hekayələrin ümumi ovqatı onların sənətkarlıq baxımından yazıçının yaradıcılığında əhəmiyyətli yerlərdən birini tutduğunu göstərir.

Sabir Əhmədlinin bəhs olunan hekayələrində Fransa həyatının sosial ziddiyyətləri bədii konfliktin ayrı-ayrı qütblərini şərtləndirir. Şübhəsiz ki, bu mövzu Azərbaycan bədii nəsri üçün yeni deyildir. Vaxtilə, görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminlinin Fransadakı mühacirət illərinin təəssüratları əsasında qələmə alınmış «Sidi», «Bir qaçqının dəftərindən» hekayələri də eyni mövzu və problemləri əks etdirir. Lakin fərq burasındadır ki, Yusif Vəzir Çəmənzəminli bilavasitə şəxsi taleyində yaşadıqlarını təsvir etdiyi halda, Sabir Əhmədli sadəcə olaraq müşahidələrinə əsaslanmaqdadır.

Azərbaycan hekayələrində qəhrəmanın sosial-siyasi konfliktlər fonunda təqdimi Vaqif Sultanlının «Qütb gecəsi» hekayəsində orijinal bədii ifadəsini tapmışdır. Qarşılaşdığı mənəvi-əxlaqi və sosial-siyasi problemlər üzündən doğma vətənini tərk edən qəhrəmanın qürbətə getdiyi bir günün təsvirinə həsr olunmuş hekayə impressionist ruhda qələmə alınmışdır. Müəllif təhkiyəsində təqdim olunan hekayənin iki qəhrəmanı olsa da, onların heç birinin adı açıqlanmır.

Başlanğıc səciyyəsi daşıyan bu epizoddan sonra yazıçı tədricən iki dostun timsalında cərəyan edən hadisələrin konfliktini açıqlamağa çalışır. Məlum olur ki, hadisələrin iştirakçısı olan hər iki şəxs bir zamanlar yaxın dost olmuş, siyasi mübarizədə bir cəbhədə olmuş, hətta həbsxanada bir kamerada yatmışlar. Elə həbsxanada ikən birlikdə ölkəni tərk edərək mühacirətə gedəcəkləri ilə bağlı razılığa gələn dostlar öz qərarlarında israrlı olsalar da, onlardan biri ailə problemləri ucbatından vədinə əməl edə bilmir. Ona görə də dostlardan biri ölkəni təkbaşına tərk edir, o biri isə aradan bir neçə il keçəndən sonra qürbətə üz tutmalı olur.

Obrazın psixologiyasında, mənəviyyatında, ruhunda özünü büruzə verən ikiləşmə, gərginlik və mübarizəni təcəssüm etdirən hekayə oxucuya



kədər və pessimizm duyğuları aşılasa da, bütövlükdə etiraz ruhunun qabarıqlığı ilə diqqəti çəkir. Burada istər yazıçı təhkiyəsi, istərsə də obrazın daxili dünyası yüksək sənətkarlıqla qələmə alınmışdır.

Bütövlükdə 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində sosial-siyasi konfliktlərin aşkarlanmasında və obraz yaradıcılığında diqqəti çəkən məqamlardan biri bədii sənətkarlığın fərqli aspektlərinin təzahür formaları ilə şərtlənir. Konfliktlərin mənəvi-əxlaqi məcrada deyil, sosial-siyasi müstəvidə cərəyan etməsi yazıçılara geniş manevr imkanları yaradır. Belə ki, mənəvi-əxlaqı dəyərlərdən fərqli olaraq sosial-siyası problemlərə münasibətdə çeşidli baxış imkanları bədii konfliktin yaradılmasında və aşkarlanmasında yaradıcılıq potensialını artırır və şərti-metaforik üslubun işləkliyini təmin edir.

İkinci fəslin II bölümü ***«Mənəvi-əxlaqi dəyərlər və obraz yaradılışı»*** adlanır. Məlum olduğu kimi, 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində diqqəti çəkən məqamlardan biri bədii konfliktin yalnız sosial-siyasi müstəvidə deyil, həmçinin mənəvi-əxlaqi kontekstdə təcəssümünü tapmasıdır. Ümumiyyətlə, mənəvi-əxlaqi məsələlər müasir Azərbaycan nəsrinin orta və gənc nəslini ən çox düşündürən problemlərdəndir. Son illərdə elə bir yazıçıya rast gəlmək mümkün deyildir ki, onun yaradıcılığında mənəvi-əxlaqi məsələlər bədii təcəssümünü tapmasın. Mənəvi-əxlaqi problemlərin çağdaş nəsrin, o cümlədən onun mühüm qollarından biri olan hekayələrin aparıcı mövzularından birini təşkil etməsi yalnız bədii örnəklərin bolluğu ilə müşayiət olunmur, həmçinin janrın sənətkarlıq səviyyəsini şərtləndirir.

Araşdırmaya cəlb olunan dövrdə İsa Hüseynov (Muğanna), Sabir Əhmədli, Qılman İlkin, Əlisa Nicat, Afaq Məsud, Aydın Tağıyev, Orxan Fikrətoğlu, Azad Qaradərəli, Elçin Hüseynbəyli, Aygün Həsənoğlu və digər yazıçıların hekayə yaradıcılığında mənəvi-əxlaqi dəyərlərin müxtəlif aspektləri bu və ya digər formada bədii təcəssümünü tapmışdır. Adı çəkilən yazıçıların hekayə yaradıcılığı mənəvi-əxlaqi problem və obraz yaradıcılığının bədii sənətkarlıq çalarlarını incələməyə imkan verir.

İsa Hüseynovun (Muğanna) «Şinel» hekayəsinin əsas mövzu obyektini təşkil edən mənəvi-əxlaqi problemlər orijinal bədii təcəssümünü tapmışdır. Özünəməxsus fərdi yaradıcılıq üslubuna, bənzərsiz yazı manerasına malik olan müəllifin bəhs olunan hekayəsində əsas hadisələr kənd məktəbində işləyən Əzizə müəllimənin taleyi fonunda cərəyan edir. Lakin Əzizə müəllimə ilə yanaşı hekayənin adı bilinməyən bir qəhrəmanı var ki, bu da müharibədən yaralı vəziyyətdə dönən əsgərdir. Yazıçı yaralı əsgərin fədakarlığı timsalında hekayənin baş qəhrəmanının taleyinə aydınlıq gətirə bilmişdir.

Hekayədə «şinel» yalnız bir geyim forması kimi deyil, itməkdə olan

mənəvi dəyərlərin simvolu kimi şərtləndirilir. Ölüm ayağında olan yaralı əsgərin həyatının ən çətin məqamında özünü deyil, özgələrini düşünməsi olduqca ciddi əxlaqi dəyər daşıyır. Maraqlıdır ki, İsa Hüseynov hekayənin ideya-estetik mahiyyətini publisistik məcrada açmamış, onu yüksək bədii sənətkarlıqla ifadə etmişdir.

İsa Hüseynovun «Portsiqar» və «Getdi» adlı hekayələrində də mənəvi-əxlaqi dəyərlər əsas mövzu obyekti kimi seçilmişdir. Hər iki hekayənin bədii sənətkarlığını şərtləndirən məqamlar burada istər yazıçı təhkiyəsində, istərsə də obrazların mükaliməlrində gerçəkləşmişdir.

«İsa Muğannanın hər hansı kiçik bir hekayəsini belə oxuyarkən, onun qəlbindən, varlığından süzülüb axan bu əsərlər sanki ağrını damla-damla oxucunun da varlığına süzür, hopdurur»[1]. Bu ordan qaynaqlanır ki, İsa Hüseynov hekayə janrına təsadüfi olaraq müraciət etməmişdir. O bir çox hallarda qaldırılan problemin oxucuya çatdırılmasının çevikliyini, səmərəliliyini təmin etmək üçün hekayələrə üz tutmuş, janrın imkanlarından istifadə etməyi, yetərincə bəhrələnməyi əsas prinsip kimi götürmüşdür. Bu mənada yazıçının hekayə janrına müraciət etməsinin əsas səbəblərindən biri məhz onun istedadının özünəməxsusluğu ilə səciyyələndirilməlidir.

Qeyd edək ki, İsa Hüseynovun roman və povestlərində olduğu kimi, hekayələrinin də əsas qəhrəmanları adi, gündəlik məişət qayğıları ilə yaşayan insanlardır. Ancaq müəllif zahirən adi, sakit həyat sürən, gündəlik məişət qayğıları ilə yaşayan bu insanların zəngin daxili aləmini, fərdi keyfiyyətlərini, özünəməxsus cəhətlərini mənəvi-əxlaqi dəyərlər müstəvisində açıb göstərə bilmiş və bununla da maraqlı, təkrarsız insan surətləri yaratmağa nail olmuşdur.

Qılman İlkinin «Bir yay gecəsində» adlı hekayəsində təsvir olunan hadisənin süjeti əsasında dayanan əsas problem mənəvi-əxlaqi dəyərlərin yaşadılması problemi ilə bağlıdır. Hekayədə cəbhədən dönən ata ilə onun oğlu Camal arasında cərəyan edən əhvalatlar bədii əksini tapmışdır. Yazıçı olduqca sadə bir epizod fonunda mənəvi-əxlaqi dəyərlərin fərqli aspektlərini qabartmağa çalışmış və bu kontekstdə təsvir etdiyi qəhrəmanlarının daxili dünyasına işıq tutmuşdur.

Qılman İlkinin «Pərizad qarının pişiyi» hekayəsinin mövzusu da mənəvi-əxlaqi dəyərlərin mövzu olaraq seçildiyi bədii örnəklərdəndir.

Mənəvi-əxlaqi problemlər müstəvisində bədii sənətkarlığın özünəməxsus məqamlarına diqqət yetirən yazıçı Əlisa Nicatın «İki Gülçöhrə»,

[1] Səkinə Maqsud. İsa Muğanna: bədii sözün böyük yaradıcısı // Azərbaycan, 2009, № 9, s. 154



«İmtahan», «Özündən xəbərsiz dahi» və digər hekayələri orijinal, bənzərsiz sənət örnəkləri kimi maraq doğurur.

Yazıçının «İki Gülçöhrə» hekayəsi əslində sənədli nəsr örnəyi kimi də səciyyələndirilə bilər. Böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin «Arşın mal alan» əsərinə çəkilmiş filmə ilk baxışın xatirəsi kimi qələmə alınmış hekayədə hadisələr dialoq şəklində təqdim olunur. Hekayədə yazıçı bədii priyom kimi seçdiyi xatirə vasitəsilə keçmişə ekskurs edir, bu kontekstdə obrazın daxili-mənəvi dünyasının özünəməxsus aspektlərini üzə çıxarmağa nail olur.

Hekayədə yazıçı sənətkarlığını səciyyələndirən əsas məqamlardan biri son dərəcə yığcam süjet daxilində keçmişlə bu günün məharətlə əlaqələndirilməsidir. Bu aspekt özünü yazıçının digər hekayələrində də göstərir. Onu da qeyd etmək lazımdır ki, Əlisa Nicatın mənəvi-əxlaqi problemlərə həsr etdiyi hekayələrdə müxtəlif zaman kəsimlərinin qarşılaşdırılması etik dəyərlərə baxışın fərqli aspektlərini səciyyələndirmək məramına xidmət etməkdədir.

Əlisa Nicatın «İmtahan» adlı hekayəsi də mənəvi-əxlaqi problemlərin özünəməxsus şəkildə işlənildiyi bədii örnək kimi maraq doğurur. «İki Gülçöhrə» hekayəsindən fərqli olaraq burada problemə bir qədər başqa aspektdən yanaşılmışdır. Belə ki, Üzeyir Hacıbəylinin xatirəsinə həsr ediyi hekayədə saf, təmiz məhəbbət təsvir olunursa, «İmtahan» əsərində çağdaş cəmiyyətimizə hakim olan mənəviyyatsızlıq, əxlaqsızlıq kimi mənfi xüsusiyyətlər tənqid obyektinə çevrilmişdir.

«Özündən xəbərsiz dahi» adlı hekayəsində isə Əlisa Nicat ədəbi yaradıcılıqda təsadüf olunan plagiatlıq məsələsinə toxunmuş, yaratmış olduğu bədii konflikt fonunda öz qəhrəmanlarının daxili-mənəvi dünyasına işıq tutmuşdur.

Yazıçı Azad Qaradərəlinin «Müdafiəçilər» adlı hekayəsinin bədii konflikti mənəvi-əxlaqi dəyərlər müstəvisində aşkarlanmışdır. Hekayədə yazıçı sənətkarlığını şərtləndirən əsas məqam konfliktin insanla cəmiyyət, fərdlə mühit arasında qurulmasıdır. Əsərin qəhrəmanları biri-birindən o qədər də seçilməyən, ancaq fərdi cizgiləri ilə təqdim olunan eyni mühitin insanlarıdır. Yazıçı öz qəhrəmanlarını vətəni tərk edən məqamda təsvir edir və onların daxili-mənəvi dünyasını bu kontekstdə canlandırmağa çalışır.

Yazıçı Orxan Fikrətoğlunun son illərdə qələmə aldığı hekayələrdə mənəvi-əxlaqi problemlər bədii konfliktin başlıca obyekti kimi seçilmişdir. Müəllifin «İtki» və «Axrestomatik əhvalat» adlı hekayələrində qaldırılan problemlər bütövlükdə yaşadığımız cəmiyyəti ciddi şəkildə düşündürən və narahat edən olduqca aktual məsələlər kimi maraq doğurur. Müəllifin hekayələrində qaldırılan problemin bədii təzahür şəkli özünəməxsus ədəbi priyom və üsullarla müşayiət olunduğundan maraqla oxunur, eyni zamanda,

sənətkarlıq axtarışlarının fərqli aspektlərini nümayiş etdirir.

Təhlillərdən aydın göründüyü kimi, 2000-2008-ci illər Azərbaycan hekayələrində mənəvi-əxlaqi problemlərə həsr olunmuş bədii örnəklər orijinallığı, bənzərsizliyi ilə yanaşı, həmçinin bədii obyektə yanaşma tərzi, aktuallağı və müasirliyi ilə də maraq doğurur. Bu da hər şeydən öncə bəhs olunan problemin bədii-estetik düşüncə üçün son dərəcə əhəmiyyət kəsb etdiyini şərtləndirir.

**«Janr, forma və üslub axtarışları»** adlı III fəsildə isə müasir Azərbaycan hekayələrində janr və üslub məsələləri təhlil obyektinə çevrilmişdir. Bu fəsil iki bölmədən ibarətdir.

Birinci bölmə ***«Janr və forma axtarışlarında yeni mərhələ»*** adlanır. Bəlli olduğu kimi, 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində diqqəti çəkən məqamlardan biri də janr axtarışlarının qabarıq şəkildə özünü büruzə verməsidir. Şübhəsiz ki, janr axtarışları bir tərəfdən ayrı-ayrı nasirlərin fərqli janrlara müraciətinin intensivliyi ilə şərtlənirsə, digər tərəfdən konkret olaraq bir janrın – hekayənin işlənilməsinin özünəməxsus çalarlarının üzə çıxarılması ilə reallışır.

Araşdırmaya cəlb olunan dövrdə yaranan hekayələri janr tipləri baxımından aşağıdakı kimi ümumiləşdirmək olar: a) tarixi hekayələr; b) lirik hekayələr; c) sənədli hekayələr; ç) satirik-yumoristik hekayələr. d) nağılvari hekayələr; e) lətifə-hekayələr; ə) novellalar.Bu bölgünün də şərti səciyyə daşıdığı nəzərdən qaçırılmamalıdır. Çünki yaranan bir çox bədii örnəklər janr çalarları və tipləri baxımından fərqli aspektləri ilə diqqət çəkir.

2000-2008-ci illərdə yaranan Azərbaycan nəsr örnəkləri içərisində tarixi hekayələr kəmiyyət etibarı ilə o qədər də diqqəti cəlb etmir. Əlisa Nicatın «Sabiq qubernator», Qılman İlkinin «Bir ovuc torpaq», Vaqif Sultanlının «Nəvai-Qumru», Kamal Abdullanın «Qərar», Fəxri Uğurlunun «Fərhadın Xosrovu öldürməsi» hekayələri istisna olmaqla tarixi mövzuya demək olar ki, müraciət olunmamışdır. Bunun da bəlli səbəbləri mövcuddur. Çünki tarixi hadisələri əks etdirmək üçün hekayə janrı roman və povestlər qədər böyük imkanlara malik deyildir. Lakin bununla belə 2000-2008-ci illərdə yaranan Azərbaycan nəsrində tarixi mövzulu hekayələrin olması diqqəti çəkir.

Əlisa Nicatın tarixi mövzuda qələmə almış olduğu «Sabiq qubernator» adlı hekayəsində əsas hadisə və əhvalatlar Şam şəhərində cərəyan edir. Şübhəsiz ki, yazıçı hadisələrin cərəyan etdiyi məkanı Azərbaycanın hüdudlarından kənara çəkməklə bir tərəfdən siyasi mövzulu əsərin ideoloji yükünü hər hansı konkret bir ünvanla bağlamaq məsuliyyətini üzərindən atmış, digər tərəfdən bir növ ədəbi priyom işlətmək məramı izləmişdir.

Bütövlükdə hekayənin məzmununa fəlsəfi ruh hakimdir. Yazıçının



digər əsərlərində olduğu kimi, burada da fəlsəfilik bədiiliyin əsas ölçülərindən biri kimi reallaşır. Hekayədə fəlsəfilik bir neçə aspektdə özünü büruzə verir: əsərin mövzusunda, dil və üslubunda, surətlərin təqdimində. Müəllif bu istiqamətləri məharətlə qovuşdura bildiyi üçün hekayədə fəlsəfi ruh qabarıq şəkildə bədii ifadəsini tapmışdır.

Araşdırmaya cəlb olunan dövrdə yazılan bədii örnəklər içərisində Vaqif Sultanlının «Nəvai-Qumru» hekayəsi də tarixi mövzuda qələmə alınmışdır. Hekayənin mövzusu məşhur Azərbaycan bəstəkarı və musiqişünas alimi Əbdülqadir Marağayinin həyatından alınmışdır. Lakin hekayədə üç fərqli süjet mövcuddur. Birinci süjet Əbdülqadir Marağayinin həyatı və taleyi ilə, ikinci süjet böyük türk sərkərdəsi Əmir Teymurun oğlu Miranşahla, üçüncü süjet isə Miranşahın oğlu Sultan Xəlillə bağlıdır. Yazıçı həcmcə o qədər də böyük olmayan bir hekayədə bu süjetləri məharətlə birləşdirə bilmişdir.

Gənc yazıçı Fəxri Uğurlunun «Fərhadın Xosrovu öldürməsi» hekayəsi də tarixi-əfsanəvi səpkidə qələmə alınmışdır. Hekayə Nizami Gəncəvinin «Xosrov və Şirin» poemasının motivləri əsasında yazılmışdır. Lakin müəllif Nizami Gəncəvinin poemasında təsvir olunan bütün əhvalatları təkrarlamamış, əsas diqqəti Fərhadın Bağıstan dağını yararaq dirilik suyunu Mədain şəhərinə axıtması süjetini əsas götürmüşdür.

Qılman İlkinin «Bir ovuc torpaq» hekayəsinin mövzusu Azərbaycanın mühacir şairi Almas İldırımın həyatından alınmışdır. Həcm etibarı ilə o qədər də böyük olmayan hekayədə yazıçı lirik üslubun imkanları çərçivəsində şairin həyat və mübarizə yolunu işıqlandıra bilmişdir.

Müəllif təhkiyəsi ilə təqdim olunan hekayənin finalına qədər söhbətin Almas İldırımdan getdiyini yalnız şairin taleyindən xəbərdar oxucu duya bilir. Çünki süjet boyu bircə yerdə olsun belə, qəhrəmanın adı çəkilmir.

«Bir ovuc torpaq» hekayəsinin lirik səpkidə qələmə alınması mürəkkəb tale yaşamış Almas İldırımın ömür yolunun tarixi aspektlərinin ümumiləşdirilməsinə xidmət edir.

Qılman İlkinin «Körpə siyənək balığı» hekayəsi nağıl üslubunda qələmə alınmışdır. Müəllif hekayənin janrını da məhz «nağıl» kimi müəyyənləşdirmişdir. Qeyd edək ki, bu hekayə Güney Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Səməd Behrənginin «Balaca Qara balıq» hekayəsindən təsirlənərək qələmə alınmışdır.

Gənc yazıçı Elçin Hüseynbəylinin «Vızıldayan timsah» əsərinin janrı nağıl-pritça, «Lüm-lüt» retro-yuxu, «Sərçə» nağıl-rəvayət, «Şöhrətsevərlik» esse-hekayə kimi təqdim olunmuşdur. Hekayələrin janrının bu qədər fərqli çalarlarla təqdim olunması bir tərəfdən yazıçının janr axtarışlarından qay-

naqlanırsa, digər tərəfdən orijinal görünmək istəyilə şərtlənir.

Satirik hekayələr sırasında Atababa İsmayıloğlunun yazıları daha çox diqqəti çəkir. Ancaq digər yazıçıların yaradıcılığında da satirik-yumoristik mövzulu hekayələrə təsadüf olunmaqdadır.

Üçüncü fəslin II bölməsi ***«Dil-üslub özünəməxsusluğu»*** adlanır. Məlum olduğu kimi, dil və üslub bədii yaradıcılığın ən vacib komponentlərindən biridir və bu amil nəzərə alınmadan ədəbi əsərlərin estetik mahiyyətini aşkarlamaq mümkün deyildir. Rus ədəbiyyatşünası, akademik M.B.Xrapçenkonun qənaətincə, «Üslub dünyanın novatorcasına mənimsənilməsidir; o, oxucu fikirlərinin, emosiyalarının, düşüncələrinin özünəməxsus katalizatoru rolunu oynayır»[1]. Lakin milli nəzəri-estetik fikirdə üslub problemi kifayət qədər araşdırılmadığı üçün bununla bağlı fərqli, hətta bəzən biri-birini inkar edən mülahizələr mövcuddur. Bəzi tədqiqatçıların fikrincə, üslubu şərtləndirən «bədiilik sənət əsərinə xas olan keyfiyyətlərin mükəmməllik səviyyəsinə qaldırılan məcmusudur»[2]. Üsluba gəldikdə isə bədiiliyin təlqin etdiyi mükəmməlliyi şərtləndirən amillərdən hesab olunmaqdadır.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələri üslub axtarışlarının dinamikliyi, mövcud bədii nümunələrdə müşahidə olunan üslubi keyfiyyətlərin zənginliyi baxımından diqqəti cəlb etməkdədir. Bu üslub əlvanlığının arxasında bədii axtarışlarla yanaşı, həmçinin dövrün, zamanın aşıladığı bir çox mühüm amillər də dayanmaqdadır. Çünki sovet siyasi rejimi dönəmində təkmetodlu sistem bədii əsərləri yalnız məzmun, ideya, problematika baxımından deyil, həmçinin forma-estetik baxımından da yönləndirir, istiqamətləndirir və müəyyən qəliblərə salırdı.

Qeyd edək ki, 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrinin üslub problemini araşdırmaq, əslində Azərbaycan nəsrinin son illərdə qazandığı bədii uğurları dəyərləndirmək anlamında dərk olunmalıdır. Bəhs olunan dövrdə Azərbaycan hekayələrinin səciyyələndirilməsi göstərir ki, bəhs olunan müxtəlif janrlarda qələmə alınan əsərlərdə əsasən aşağıdakı üslub istiqamətləri özünü büruzə verməkdədir: a) epik-analitik üslub; b) lirik-psixoloji üslub; c) sənədli-publisistik üslub; d) satirik-yumoristik üslub.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində epik-analitik üslub daha çox İsa Muğannanın, Müzahim İsmayılzadənin, Mübariz Cəfərlinin yaradıcılığında özünü büruzə verməkdədir. Xüsusilə, İsa Hüseynovun hekayələri epik-analitik üslubun özünəməxsus çalar və cizgilərini əks

[1] Храпченко М.Б. Творческая индивидуальность писателя и развитие литературы. М.: Советский писатель, 1975, с.147

[2] Himalay Qasımov. Bədiiliyin meyarı. Bakı: APİ, 1990, s.43



etdirmək baxımından diqqəti cəlb edir. Yazıçının roman yaradıcılığı üçün səciyyəvi olan epik-analitik üslub hekayələrində də eyni formada təzahürünü tapmaqdadır. Bu üslub müəllifə ən sərt həqiqətləri soyuqqanlı şəkildə ifadə etməyə imkanlar açdığı kimi, həmçinin yazılarının oxunaqlılığını təmin edən ən mühüm faktorlardan biri kimi diqqəti çəkir.

İsa Muğannanın «Dan ulduzu və mən», «Unus», «Rzaqulu», «Yekədiz Məcid», «Küp», «Şinel», «Portsiqar», «Getdi», «Şapalaq», «Küllük» və digər hekayələri əsas etibarı ilə bu üslubun çalarlarını daşımaqdadır. Düzdür, əvvəlki illərdə yazıçının yaradıcılığında lirik-psixoloji üslubda hekayələrə də intensiv şəkildə təsadüf olunur. Lakin bununla belə İsa Hüseynovun yaradıcılıq erudisiyası daha çox epik-analitik üslubun ifadə imkanlarına bağlıdır və onun əsərlərinin bu prizmadan dəyərləndirilməsi daha məqsədəuyğundur. Yazıçının əsərləri epik-analitik üslubun xüsusiyyətlərini bütün yönlərilə əks etdirir.

2000-2008-ci illərdə yaranan Azərbaycan nəsrində Əlisa Nicat, Rafiq Tağı, Afaq Məsud, Firuz Mustafa, Azad Qaradərəli, Aygün Həsənoğlu və digər yazıçıların hekayələri lirik-psixoloji üslubun özünəməxsus örnəkləri kimi diqqəti çəkir.

Bəhs olunan dövrdə lirik-psixoloji üslub yalnız məhəbbət mövzusunda yazılmış hekayələrdə deyil, digər mövzularda qələmə alınmış bədii örnəklərdə də özünü büruzə verdirir. Rafiq Tağının «Slavyan Universitetinin professoru», «Əlverişli intihar hündürlükləri», «Evi üzü günçıxana istəmişdim», Firuz Mustafanın «Çisək», «Okean», «Şən məclis» hekayələri lirik-psixoloji üslubun çalarlarını əks etdirən maraqlı bədii nəsr örnəkləri kimi diqqəti çəkir.

Rafiq Tağının bəhs olunan hekayələrində diqqəti çəkən əsas məqamlardan biri lirik-psixoloji üslubun digər üslubi çalarlarla vəhdətdə təzahür etməsidir. Belə ki, yazıçının qələminə məxsus olan hadisə və əhvalatlara analitik yanaşma tərzi lirik-psixoloji üsluba xeyli dərəcədə təsir göstərmiş, bu isə bütövlükdə hekayələrin özünəməxsusluğunu təmin etmişdir.

Yazıçı-dramaturq Firuz Mustafa lirik-psixoloji üslubun imkanlarından bəhrələnərək öz qəhrəmanlarının daxili-mənəvi dünyasının gizlinliklərinə nüfuz etməyi bacarır. Bu üslub, eyni zamanda, müəllifə təsvir etdiyi hadisə və əhvalatları inandırıcı şəkildə canlandırmağa imkan verir.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində sənədli-publisistik üslub daha çox Sabir Əhmədlinin yaradıcılığında özünü büruzə verir. Yazıçının «Fransa hekayələri» silsiləsindən qələmə aldığı «Rezidens de Mareşo»da», «Marsel – varlanmaq istəyi», «Eks-yoxsulluq istəyi», «Paris Notrdam kilsəsində top atəşi», «Apatri» kimi hekayələri sənədli-

publisistik üslubun maraqlı, özünəməxsus örnəkləri kimi diqqəti çəkir. Adı çəkilən hekayələrin canlı təəssürat nəticəsində qələmə alınması onların dilində sənədli-publisistik üslubun qabarıqlığını şərtləndirmişdir.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində satirik-yumoristik üslub da diqqəti çəkməkdədir. Əlbəttə, digər üslublarla müqayisədə satirik-yumoristik üslubda sayca o qədər də bədii örnək yaradılmamışdır. Lakin mövcud bədii örnəklər bu üslubun da ayrıca səciyyələndirilməsini şərtləndirir. Əvvəlki dövrlərdə olduğu kimi, müasir mərhələdə də Azərbaycan hekayələrində satirik-yumoristik üsluba az diqqət yetirilməsi hər şeydən əvvəl istedadın yönümündən qaynaqlanır.

Yazıçı Elçin Hüseynbəylinin bir sıra hekayələri satirik-yumoristik üslubda qələmə alınmışdır. Belə ki, müəllifin «Mıx», «Qarabağ şikəstəsi», «Eşşək haqqında ballada», «Boz eşşəyin məktubları», «Boz eşşəyin məktubuna cavab», «Keçid dövrünün toyuğu» və digər hekayələri bu mənada səciyyəvi bədii örnəklər kimi diqqəti çəkir. Qeyd edək ki, Elçin Hüseynbəylinin adı çəkilən hekayələri Mirzə Cəlil üslubunda qələmə alınmışdır. Lakin bir məsələyə diqqət yetirilməlidir ki, o, yaradıcılığına böyük dəyər verdiyi Mirzə Cəlili kor-koranə təkrarlamır, böyük ədibin üslubuna yeni-yeni çalarlar əlavə edə bilir.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində üslub çalarlarını səciyyələndirərkən yuxu və fantasmaqoriya elementlərinə müraciətin fərdi üslubun formalaşmasında roluna da diqqət yetirilməsinə ehtiyac duyulur.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrinin bədii-estetik aspektlərini şərh edərkən dil amilini nəzərə almadan doğru qənaətə gəlmək mümkün deyildir. Bəhs olunan dövrdə ayrı-ayrı yazıçıların əsərləri bədii dildən məharətlə istifadə etmənin canlı örnəyidir. Çağdaş hekayələrdə dil hədsiz dərəcədə poetikliyi, axıcılığı, ahəngdarlığı ilə diqqəti cəlb edir. Xüsusilə İsa Muğanna, Sabir Əhmədli, Əlisa Nicat, Vaqif Sultanlı, Elçin Hüseynbəyli, Şəlalə Əbil və digər yazıçıların hekayələrinin dili özünəməxsusluğu, fərdi çalarlar ilə diqqəti cəlb edir.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrinin böyük əksəriyyəti yazıçıların bədii dilin imkanlarından məharətlə istifadə etdiyini, təsvir olunan obyekti bütün canlılığı ilə göstərməyə çalışdığını aşkara çıxarır. Hekayələrdə bədii dilin emosionallığı bütün məqamlarda hadisə və əhvalatların təsir gücünü artıran ünsür kimi çıxış etməkdədir.

Yazıçı-ədəbiyyatşünas Elçin bədii dilin funksiyası ilə bağlı qənaətlərini ümumiləşdirərək yazır: «Əgər sənətin təzahür vasitələrini öz əhəmiyyətinə görə dərəcələrə ayırmaq mümkünsə, bədii dil birinci dərəcəli əhəmiyyətə malikdir, başqa sözlə desək, bədii dil əldə elə bir amildir ki,



onun səviyyəsi, ümumiyyətlə, bədii ədəbiyyatın səviyyəsi üçün meyarlardan ola bilər»[1]. Burada tənqidçinin qənaətləri ilə razılaşmamaq mümkün deyildir. Çünki bəlli olduğu kimi, bədii əsərlərin səviyyəsi çox zaman dilin səviyyəsi ilə müəyyənləşdirilir. Bu baxımdan çağdaş Azərbaycan hekayələri də istisna təşkil etmir.

Bir məsələyə də toxunmağa ehtiyac duyulur ki, o da bədii dilin imkanlarından bəhrələnərkən yazıçıların fərqli mövqedən çıxış etməsidir. Belə ki, ayrı-ayrı əsərlərdə təsvir olunan mövzunun ruhuna, məzmununa uyğun bir dil biçimi seçilməsi nəzərə çarpmaqdadır. Bu da təbiidir, çünki bədii əsərdə dil təsvir olunan obyekti canlandırmaq üçün mühüm əhəmiyyət daşımaqdadır.

**«Nəticə»**də dissertasiyanın ayrı-ayrı fəsillərində irəli sürülən fikir və mülahizələr ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əksini tapmışdır:**


1. Gülhüseyn Hüseynoğlu hekayələrində təlim-tərbiyə mövzusu // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal). Bakı, 2006, 3(51),s.108-110.
2. Qılman İlkinin hekayələri // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal). Bakı, 2010, №3(74), s.126-129.
3. Çağdaş Azərbaycan hikayələrində fikir-problematika modernliği // Kültür Evreni. Ankara, 2010, № 7 s.135-143.
4. Карабахскаə тема в современноj Азербаjджанскоj литературе / Пəтигорскиj Государственныj Лингвистическиj Университет. Ʀпическиj текст: Проблемы и перспективы изучениə. Материалы 111 Международноj научноj конференүии 17-19 ноəбрə 2010 года. Пəтигорск, 2010, с.35-36.
5. Выбор темы, сөжет и типичностғ современноj Азербаjджанскоj литературы // Хабарчи вестник. Казахскиj Наүионалғныj Университет имени Алғ-Фараби. Алматы, 2010, № 6 (130), с.153-156.
6. İsa Hüseynovun (Muğanna) hekayələrində mənəvi-əxlaqi dəyərlər // Bakı Universitetinin xəbərləri (Humanitar elmlər seriyası), Bakı, 2011, №2, s.64-68.
7. Müasir Azərbaycan hekayələrində dil-üslub xüsusiyyətləri // Bakı Universitetinin xəbərləri (Humanitar elmlər seriyası), Bakı, 2012, №1, s.58-64.
8. Çağdaş Azərbaycan hekayələrində bədii dilin rolu və imkanları // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal). Bakı, 2015, №1(93), s. 212-214.


---

[1] Elçin. Tənqid və ədəbiyyatımızın problemləri. Bakı: Yazıçı, 1981, s.47

**Офеля Султан кызы Аббасова**

## ВОПРОСЫ МАСТЕРСТВА В СОВРЕМЕННЫХ АЗЕРБАЙДЖАНСКИХ РАССКАЗАХ (2000-2008 гг.)

### Резюме

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во **“Введении”** кратко изложены актуальность темы, ее научная новизна и история изучения, цели и задачи исследования, ее теоретико-практическая основа, апробация, практическое значение и пр.

В отдельных главах диссертации рассказы Исы Гусейнова (Муганна), Сабира Ахмедлы, Алиса Ниджата, Элчина, Гылмана Илкина, Афаг Масуд, Рафига Таги, Вагифа Султанлы, Орхана Фикретоглы, Азада Гарадяряли, Элчина Гусейнбейли, Айгюн Гасаноглу и др. азербайджанских писателей рассмотрены в плане различных аспектов проблемы мастерства.

В I главе диссертации (**«Новизна темы, идеи и проблемматики в рассказах»**) рассматривается, с одной стороны, проблема темы и идеи, с другой – вопросы проблематики. Несмотря на то что, здесь в качестве главного критерия приняты тема, идея и проблематика, аспекты мастерства также находятся в центре внимания.

В озаглавленной **«Художественный конфликт и проблема героя»** II главе анализируются и исследуются вопросы социально-политические конфликты и герой, морально-нравственные ценности и образ. Хотя привлеченные здесь к анализу рассказы и различаются в плане описанных конфликтов, обращено внимание и на объединяющие их моменты.

III глава под названием **«Поиски жанра, формы и стиля»** посвящена анализу вопросов жанра, формы, языка и стиля современных азербайджанских рассказов. Выдвинутые теоретические положения закреплены примерами из соответствующих произведений.

В **«Заключении»** обобщаются выдвинутые в различных главах диссертации основные положения.



**Ofelya Sultan gizi Abbasova**

## THE ISSUE OF POETICS IN CURRENT AZERBAIJANI SHORT STORIES (2000-2008)

### Summary

The dissertation consists of preface, three chapters, conclusion and list of the used literature.

The preface succinctly talks about the actuality, scientific novelty, goals and objectives of the research, objects, research history, theoretical-methodological basis, approbation, as well as, its practical importance.

In the different chapters of the dissertation, the creativity of the short stories of Isa Huseynov (Muganna), Sabir Ahmadli, Alisa Nijat, Elchin, Gilman Ilkin, Afag Masud, Rafig Taghi, Vagif Sultanly, Orkhan Fikratoghlu, Azad Garadarili, Elchin Huseynbayli, Aygun Hasanogly and others have been analysed.

The first chapter of the dissertation which is titled **“The novelty of theme, ideas and problems in the short stories”** examines the issues of themes and ideas from one hand, and from other hand the problematic issues. In the short stories told in that period, the main criteria is the theme, idea and problematic issues, at the same time the creative aspects have been focused as well.

The second chapter which is titled “**Fictional conflict and problem of protagonists”** analyses social – political conflicts, protagonists, spiritual-ethical values and character issues. The short stories analysed in the chapter differentiates between different conflicts, and also pays attention to the mutual issues in these conflicts.

The third chapter which is **“Genre, form and style searches”** analyses the issues of genres, forms, language and style in Azerbaijani short stories. The arguments raised in the chapters contain examples from different literary works.

In the **“Conclusion”**, the main ideas put forward in the chapters are generalized.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ОФЕЛЯ СУЛТАН Кызы АББАСОВА**

# Вопросы мастерства в современных азербайджанских рассказах (2000-2008 гг.)

**5716.01 – Азербайджанская литература**

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ - 2017**

**Kağız formatı 60x84 1\16 Sayı 100**

**“Bakı Universiteti”nəşriyyatı, Bakı, AZ 1148, Z.Xəlilov 23.**